BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2012*

**UOT: 334.021:35 – iqtisadi nəzəriyyə**

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN MAKROİQTİSADİ MÜVAZİNƏTİN DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ NƏZƏRİ ƏSASLARI

**H.X.BEHBUDZADƏ**
***Bakı Dövlət Universiteti***
***hbehbudzade@mail.ru***

*Azərbaycan Respublikasında sosial-iqtisadi makroiqtisadi göstəricilər təhlil edilmiş, milli iqtisadiyyatın nəzəri məsələləri araşdırılmış, dövlətin pul-kredit siyasəti təhlil edilərək özəl bölmədə sahibkarlığın inkişafına dövlət dəstəyi açıqlanmışdır.*

**Açar sözlər:** sosil-iqtisadi inkişaf, makroiqtisadi müvazinət, dövlət tənzimlənməsi

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyat anlayışı iqtisadi təlimlər tarixinin müasir inkişaf mərhələsində elə bir dünya birliyi mahiyyətində təşəkkül tapmışdır ki, buraya hər bir xalqın, millətin və ya bu məfhumların ümumiləşdirilmiş ifadəsi olan milli dövlətin malik olduğu makro- və mikroiqtisadi fəaliyyət sahələri ilə yanaşı, o, həm də bu canlı bədənin fəaliyyəti üçün zəruri olan digər tərkibləri də özündə birləşdirir. Milli inkişaf səviyyəsindən asılı olmayaraq XXI əsr iqtisadiyyatı tamamilə bazar münasibətlərinə əsaslanmaqla, dünya ölkələrinin qarşılıqlı iqtisadi əlaqələri şəraitində və yeni səmərəli əməkdaşlıq münasibətlərinin təşəkkülünün yaradılmasına əsaslanır. Bu baxımdan, müasir mərhələdə, ölkələr bir-birindən əvvəlki dövrlərdəki təcridetmə siyasəti əsasında deyil, əksinə, getdikcə genişlənən qarşılıqlı əməkdaşlıq şəraitində, özlərinin qədim ənənəvi təcrübəsinə əsaslanmaqla BƏB-də (Beynəlxalq Əmək Bölgüsü) iştirak edir və milli iqtisadiyyatın dinamik inkişafı üçün geniş beynəlxalq təmələ arxalanmaq, bu təməldən milli mənafelərin təminatı üçün bəhrələnmək imkanı əldə edirlər. Milli iqtisadiyyatın artım dinamikasından bəhs edərkən burada daha bir vacib beynəlxalq amili qeyd etmək lazımdır ki, müasir mərhələdə dünyanın bütün ölkələri, xüsusilə də inkişaf etmiş bütün ölkələr, daha çox «açıq iqtisadiyyat siyasətinə meyl göstərməyə başlamışlar ki, bu da milli iqtisadiyyatların qarşısında duran bir sıra istehsal amilləri çətinliklərinin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələri arasında getdikcə daha da genişlənən beynəlxalq iqtisadi əlaqələr arzusu ilə də

beynəlxalq ticarət əlaqələri daha böyük əhəmiyyət kəsb edir. Bu gün dünyanın bütün görkəmli iqtisadçıları milli iqtisadiyyatın hərtərəfli və sürətli inkişafı üçün beynəlxalq ticarət əlaqələrini əsas amil hesab edirlər. Bu təklifə əsasən istehsal amillərinə, xüsusilə də pul kütləsinə olan tələbatın artımı, ümumi daxili məhsulun artmasına səbəb olan digər «nisbi üstünlük» təşkil edən amillərə şamil edilir.

Nəzəri əsası A.Smit və D.Rikardo tərəfindən hələ XVIII əsrdə qoyulan istehsal amillərinin «nisbi və... mütləq üstün inkişaf» nəzəriyyəsi XXI əsrin ölkələrarası qarşılıqlı əlaqə və "asılılıq" şəraiti fonunda özünün vacibliyini daha aydın gözə çarpdırır. Bütün bunlara əyani misal olaraq "transmilli" və "çox milli" beynəlxalq şirkətlərin fəaliyyətlərini göstərmək olar. Belə ki, məlum olduğu kimi XX əsrin son illərində dünya miqyasında fəaliyyət göstərən nisbətən irihəcmli beynəlxalq transmilli və çoxmilli kapital şirkətlərinin ümumi sayı, artıq, qırx mini ötüb keçmiş, onların ayrı-ayrı ölkələrdəki şöbələrinin sayı isə 210 minə çatmışdır.

Beynəlxalq iqtisadi-valyuta münasibətlərinin yaranması və maliyyə bazarının formalaşması milli iqtisadiyyatların daimi ehtiyac duyduqları maliyyə çətinliklərinin aradan qaldırılmasında mühüm əhəmiyyətə malikdir. Marksın təbirincə desək, «əgər hər bir ölkə yalnız öz milli kapitalının inkişafına ümidlə yaşasa, onda onların ümumi inkişaf səviyyəsini daha bir neçə yüz illər gözləməyə möhtac olardıq» [7, 353].

Qeyd etmək lazımdır ki, beynəlxalq kredit əlaqələrinin və xarici investisiya qoyuluşlarının üstünlüklərini, öz azadlığının nisbətən bu az dövründə Azərbaycan Respublikası artıq hiss etməyə başlamışdır. Məhz qeyd edilən bu və ya bir sıra ümumi bəşəri və beynəlxalq əhəmiyyətli amillərin meydana gəlib inkişaf etməsi sayəsində nisbətən genişmənalı makroiqtisadiyyat anlayışı meydana gəlmişdir.

Makroiqtisadiyyat hər bir ölkənin, xalqın bütövlükdə milli iqtisadiyyatını və eləcə də, onun vahid iqtisadi bütövlüyünü əhatə edir. Ölkədə müəyyən dövr ərzində bütün iqtisadi fəaliyyət sahələrində yaradılan yeni dəyər göstəriciləri makroiqtisadi səviyyəni bilavasitə müəyyən edir. Məhz buna görə də makroiqtisadi səviyyədə ümumi inkişafı və onun dinamikasını müəyyən etmədən qarşısında duran sosial-iqtisadi məqsədlərə nail olmaq mümkün deyildir. Bu baxımdan milli - makroiqtisadi siyasət istiqamətlərinin müəyyən olunması və onun həyata keçirilməsi mexanizminin işlənib hazırlanması ən vacib məsələlərdən birini təşkil edir. Makroiqtisadi siyasət öz istiqamətlərinə əsasən, makroiqtisadi sabitliyin təmin olunması, sosial-siyasətin həyata keçirilməsi, fiskal, pul-kredit, maliyyə-büdcə-vergi siyasəti, iqtisadi təhlükəsizlik, məşğulluq və işsizlik, informasiya və digər məsələləri əhatə edir. Makroiqtisadi siyasətin qeyd edilən bu istiqamətlərinin tənzimlənməsi və onların inkişaf dinamikasının daimi nəzarətdə saxlanması hər bir milli dövlətin icra fəaliyyətinin ana xəttini təşkil etməlidir. Bu baxımdan milli iqtisadiyyatın dinamik inkişafının

makroiqtisadi amillərinin əsas kütləsi milli dövlətin iqtisadi siyasəti ilə dialektik vəhdət təşkil edir. Bu barədə keçən əsrdə böyük ingilis iqtisadçısı S.Koynis Fxudan fikirlər söyləmişdir. Məhz ona görə də dövlət iqtisadiyyata müdaxilə etməlidir və sabitləşdirici siyasət həyata keçirməlidir. Dövlətin büdcə fiskal siyasəti dövlət xərclərinin vergilərin lazımi hallarda artırılıb-azaldılmasına yönəldilməlidir. Qısamüddətli büdcə-vergi siyasəti zamanı xərcləri və vergiləri tənzimləməli, tədavül dairəsi yollarında yığılıb qalmış pulları təmizləməlidir. Bu tədbirlər dövlət büdcəsinin dəyişilməsinə gətirib çıxarır. İqtisadi tənəzzül dövründə məcmuu tələbi artırmaq üçün dövlət öz xərclərini artırmaqla bir sıra makroiqtisadi siyasətini həyata keçirir. İnflyasiya dövründə isə dövlət öz xərclərini azaltmaqla iqtisadiyyatın sabitləşməsi siyasətini təmin edir. Bundan başqa ümumi-iqtisadi siyasətin tərkib hissəsi olan normal pul-kredit, vergi-büdcə (fiskal) siyasəti də iqtisadiyyatın inkişafında mühüm əhəmiyyət kəsb edir.

Pul-kredit və ya monetar siyasət dövriyyədə olan pulun təklifinin azaldılması və ya çoxaldılması təkliflərini nəzərdə tutur. Tədavül kanallarında pula olan təklifin artması investisiya və istehlak xərclərini də artırır ki, bu da iqtisadi böhran və işsizlik üçün təkan rolunu oynayır. Əks halda inflyasiya ilə müşahidə olunan iqtisadiyyatın yüksəliş dövründə pul kütləsinin azaldılması tələbin azalmasına və qiymətlərin aşağı düşməsinə gətirib çıxarır.

Pul-kredit siyasəti ümumi iqtisadi siyasətin tərkib hissəsi olmaqla maliyyə-kredit sahəsinin əsas hissəsini təşkil edir və buna görə də, iqtisadiyyatın inkişafında onun əhəmiyyəti böyükdür. Pul-kredit siyasətinin əsas məqsədi məşğulluğu təmin etmək və inflyasiyanın qarşısını almaqla istehsalın yüksəldilməsində iqtisadiyyata müsbət təsir göstərməkdir. Bu siyasət istehsalın ümumi həcminin və məşğulluğun səviyyəsinin yüksəldilməsini təmin etmək üçün pul təklifinin dəyişdirilməsindən ibarətdir. Ümumiyyətlə, pul-kredit siyasəti normal iqtisadiyyatda pul təklifinin artmasına gətirib çıxarır, iqtisadiyyatda gedən inflyasiya zamanı isə əksinə, pulun təklifini məhdudlaşdırır ki, bu da xərclərin məhdudlaşdırılması məqsədini güdür. Bu siyasət Milli Bank tərəfindən həyata keçirilir. Milli Bank Kommersiya Banklarında olan artıq ehtiyatların həcmini dəyişdirməklə ölkədə pul təklifinin həcmini dəyişir [9, 486].

Beləliklə, Milli Banklar öz səlahiyyətləri daxilində pul-kredit siyasətində aşağıdakı tədbirləri ilə pul təklifinin dəyişməsinə nail ola bilərlər:

1) maliyyə bazarlarında dövlətin qiymətli kağızlarının alqı-satqısı ilə;

2) kommersiya banklarının mərkəzi bankdan götürdükləri kreditin faizini-uçot dərəcəsini dəyişməklə;

3) ehtiyat normalarının dəyişilməsi-kommersiya banklarının məcburən mərkəzi bankla ehtiyat şəklində saxladıqları və kreditə verə bilmədikləri depozitlərdən alınan müəyyən faiz dərəcələri ilə.

Pul-kredit siyasətini həyata keçirmək üçün istifadə edilən bu üç əsas amilin iqtisadiyyata tətbiqində bir-biri ilə əlaqəli aşağıdakı tədbirlərin həyata keçirilməsinə zərurət yaranır. Əvvəla, Milli Bank iqtisadiyyatda əsasən iki cür

pul-kredit siyasəti yeridir:

1. Sərt pul-kredit siyasəti ölkə iqtisadiyyatında yüksək, inflyasiya getdiyi və ya milli valyutanın dəyərindən düşdüyü-hallarda Mərkəzi Bank sərt pul-kredit siyasəti yeridir. Lakin sərt pul-kredit siyasəti bəzən mənfi hallara da gətirib çıxarır. Belə ki, o, sabitlik məqsədilə istehsal sahələrinin kreditdən məhrum olması nəticəsində ÜDM-in (Ümumdaxili Məhsulun) səviyyəsi də aşağı enir. Sərt pul-kredit siyasəti inflyasiyanı yüngülləşdirir, lakin ölkənin ticarət balansının kəsirinə gətirib çıxarır. Çünki sərt pul-kredit siyasəti zamanı milli valyutanın dəyəri qalxır, Bu isə yerli əmtəə və xidmətlərin xarici valyutaya nəzərən qiymətlərini artırır. Nəticədə isə ixrac da azalır.

2. Yumşaq pul-kredit siyasəti; bu zaman iqtisadiyyat, işsizlik və qiymətlərin düşməsi ilə üz-üzə gəlir. Milli Bank xərclərin məhdudlaşdırmaq (stimullaşdırmaq) üçün pulun təklifini artırmaq qərarına gəlir. Bu məqsədlə ölkə iqtisadiyyatında yumşaq pul-kredit siyasəti həyata keçirilir. Yumşaq pul-kredit siyasətinin əsas məqsədi kreditlərin kommersiya bankları və hüquqi şəxslər tərəfindən asan əldə edilməsidir. Yumşaq pul-kredit siyasəti də bəzi mənfi hallara gətirib çıxara bilər. Belə ki, yumşaq pul-kredit siyasəti zamanı kreditlərin faiz dərəcələrinin endirilməsi zamanı ölkəyə gələn maliyyə kapitalı azalır, milli valyuta dəyərdən düşür. Bunu belə izah etmək olar ki, ölkədə istehsal olunan mallar xarici bazarlarda ucuzlaşır, xaricdə istehsal olunan əmtəələr isə ölkə daxilində bahalaşır. Bunun nəticəsində ölkənin ixracı artır, idxal isə azalır, o cümlədən ÜDM artır.

Sərt pul-kredit siyasəti düşünülmüş qaydada aparılarsa, Kommersiya Banklarının ehtiyat vəsaitləri ilə onların gəlirləri eyni səviyyəyə çata bilər ki, bu halda banklar kreditlərinin həcmini məhdudlaşdırmada maraqlı ola bilərlər. Bu da o deməkdir ki, pulun təklifi azalmalıdır.

Sosial-iqtisadi inkişaf amilləri öz tərkibində əsasən iqtisadi, pul-kredit, vergi-büdcə, sosial, mədəni və xarici amilləri birləşdirir. Bu prosesdə pul kredit siyasəti ümumi iqtisadi siyasətin tərkib hissəsi olmaqla maliyyə-kredit siyasətinin əsasını təşkil edir və buna görə də makroiqtisadi amillərin inkişafında əhəmiyyətli rol oynayır. Kommersiya banklarında xalq təsərrüfatı sahələrinin normal təmin edilməsi üçün pula olan tələbatı pul-kredit siyasətində aşağıdakı üç əsas amillərdən istifadə edilir:

1) "Açıq bazar" əməliyyatı;

2) ehtiyat normasının dəyişdirilməsi;

3) Hesablama ( uçot ) dərəcələrinin dəyişdirilməsi.

**Açıq bazar əməliyyatı** pula olan təklifi tənzimləyən əsas alətdir. Bu əməliyyat dövlət istiqrazlarının. Mərkəzi Bank tərəfindən kommersiya banklarına və əhaliyə alınıb satılması yolu ilə həyata keçirilir.

Əgər Mərkəzi Bank kommersiya banklarından və əhalidə olan istiqraz vərəqələrini alırsa, kommersiya banklarının ehtiyatı yüksəlir və onların kredit ehtiyacı çoxalır və onların kredit-vermə qabiliyyəti artır. Bu əməliyyatı belə

izah etmək olar: Kommersiya bankları öz qiymətli kağızlarının bir hissəsini Mərkəzi Banka satır və bunun nəticəsində pul ehtiyatı yüksəlir. Başqa bir tərəfdən əhali Mərkəzi Banka verdiyi istiqraz vərəqələrinin əvəzində aldığı Mərkəzi Bankın qəbzlərini Mərkəzi Banka verir və əvəzində pul ehtiyatlarını daha da artırır. Bu əməliyyat pul təklifini artırır ki, o da öz növbəsində təsərrüfat sahələrinə təklifi artırır, bunun da nəticəsində təsərrüfat sahələrinə ayrılan krediti yüksəldir və təsərrüfat sahələri inkişaf edir. Ancaq bu əməliyyat mənfi nəticə də verə bilər ki, bu da milli valyutanın təklifinin artması ilə onun dəyərdən düşməsi halına gəlib çıxmasıdır. Bu vəziyyəti aradan qaldırmaq məqsədilə Mərkəzi Bank dövlət istiqrazları buraxaraq əhaliyə və kommersiya banklarına satmaqla kommersiya banklarının və əhalinin nəqd ehtiyatların azaldır və nəticədə kommersiya banklarının kredit vermə qabiliyyəti azalır. Beləliklə, kommersiya bankları ehtiyat fondundakı pulları Milli Banka verərək dövlət istiqrazlarını alır. Bu əməliyyat nəticəsində milli valyutaya olan tələb azalır və milli valyuta möhkəmlənir. Bu zaman iqtisadiyyatda mənfi nəticələr meydana çıxa bilər ki, bu da təsərrüfat sahələrinə ayrılan kreditin həcminin azalmasında təzahür edə bilər [9, 486].

Əgər Mərkəzi Bank dövlət istiqrazlarını almaq istəyirsə, bu istiqrazlara tələb artır, istiqrazların faiz dərəcələri isə azalır. Buna görə də, əhali və kommersiya bankları istiqrazları Mərkəzi Banka satır. Əksinə, Mərkəzi Bank dövlət istiqrazlarını satmaq istəyirsə, istiqrazların faiz dərəcəsini artırır, qiymətlərini isə endirir. Azərbaycanda qiymətli kağızlar bazarı kifayət qədər formalaşdığı üçün pul-kredit siyasətinin bu alətindən Mərkəzi Bank səmərəli istifadə edə bilmir.

2) Pul-kredit siyasətini həyata keçirmək üçün istifadə edilən ikinci əsas alət" ehtiyat normasının dəyişdirilməsi" prosesidir, bu da bank tərəfindən kommersiya banklarının ehtiyat normasının dəyişdirilməsi ilə həyata keçirilir. Bu proses aşağıdakı kimi həyata keçirilir. Mərkəzi Bank kommersiya bank kommersiya banklarının kredit vermə qabiliyyəti azalır və iqtisadiyyatda pul təklifi azalır. Əksinə, Milli Bank kommersiya banklarının ehtiyatında ehtiyat normasının faizini azaltdıqda isə Kommersiya banklarının kredit vermə qabiliyyəti çoxalır, iqtisadiyyatda milli valyutaya olan təklif artır.

3) Pul-kredit siyasətini həyata keçirmək üçün istifadə olunan alətlərdən biri də "uçot dərəcəsinin dəyişdirilməsi" əməliyyatıdır. Bu əməliyyatı Mərkəzi Bank əhaliyə və kommersiya banklarına verdiyi kreditin faizini dəyişdirməklə həyata keçirir. Bu zaman Mərkəzi Bank əhaliyə və kommersiya banklarına aşağı faizlərlə kredit verirsə, kommersiya bankı bu kreditləri alır və ehtiyat fondunu yüksəldir. Bu vaxt kommersiya banklarının kreditvermə qabiliyyəti artır və iqtisadiyyatda milli valyutaya olan təklif artır. Əksinə, Mərkəzi Bank krediti yüksək faizlə verirsə, kommersiya bankları bu krediti almır və onların kreditvermə qabiliyyəti məhdudlaşdırılır ki, bu da iqtisadiyyatda milli valyutaya olan təklifi azaldır, daha doğrusu məhdudlaşdırır.

Respublika iqtisadi tənəzzül dövründə kommersiya banklarından dövlət qiymətli kağızları almaqla pula olan təklifi artıra bilər. Banklar qiymətli kağızların satışından əldə etdikləri pula daha çox kreditlər vermiş olurlar. Bu vaxt iqtisadiyyatda pul axını baş verir. Ehtiyat normasının və uçot dərəcəsinin azalması pul kütləsinin artmasına səbəb ola bilər. Bu siyasət "ucuz pul siyasəti" adlanır. Artıq pul kütləsi kredit şəklində investisiyaya yönəldilə bilər və istehsalın artımına gətirir. İnflyasiya artımı isə müşahidə olunan zirvə dövründə dövlət "bahalı pul siyasəti" həyata keçirir, qiymətli kağızlarını kommersiya banklarına satır, uçot dərəcəsini və ehtiyat normasını artırır. Bu cür tədbirlər dövriyyədə olan pul kütləsini azaldır, kreditləri bahalaşdırır və məcmu xərcləri məhdudlaşdırır. Neokonservatorlar Keynes nəzəriyyəsinin zəif tərəfini müəyyən edərək onun fikirlərinə qarşı çıxdılar.

Beləliklə, iqtisadiyyatın tənzimlənməsində keynsçilər vergi-büdcə siyasətini, Monitaristlər isə pul-kredit siyasətini əsas götürürlər. Monitar siyasət iqtisadi dövrlərin yüksək və ən aşağı mərhələlərində çox əlverişli olsa da heç də həmişə lazımi nəticə vermir. Məsələn, faiz dərəcələrinin azaldılması kreditlərin cəlb olunması üçün kifayət etməyə bilər.

Lakin Monitar yanaşmanın əsas ideyası ondan ibarətdir ki, bazar iqtisadiyyatı dövlət tənzimlənməsinə möhtac deyil. Dövlət iqtisadiyyatında rəqabət sistemi özü makroiqtisadi səviyyədə sabitləşməyə qadirdir. Onların fikrincə, iqtisadiyyatın əsas bazarı pul bazarıdır. Monitaristlər iqtisadi yoxsulluğun bütün səbəblərini pula olan tələblə təklif arasındakı tarazlığın pozulmasında görürdülər. Neokonservatorlar Keyns nəzəriyyəsinin yerinə dövlətin iqtisadiyyata qarışması məsələsinə qarşı çıxan yeni fikir istiqamətləri təklif etdilər. Onlar öz nəzəri və təcrübi müddəalarını qarşıya qoydular:

1. İstehsalın və məşğulluğun artımı üçün inflyasiyadan istifadə olunması fikrinə əks çıxaraq, dövriyyədə olan pulun ixtisarı fikrini irəli sürdülər.

2. Keynsin fiskal siyasətinin alətlərindən biri olan vergilərin həddən artıq artırılmasına qarşı çıxdılar. Keyns nəzəriyyəsinin yuxarıdakı istiqamətləri təcrübədə stabilasiyaya gətirdi. Buna qarşı çıxan M.Firidmenin rəhbərliyi ilə monitarizm məktəbi fəallaşdı. Monitar yanaşma ondan ibarətdir ki, bazar iqtisadiyyatı dövlət tənzimlənməsinə möhtac deyil. Bazar rəqabəti sistemi özü makroiqtisadi sabitliyə (stabilləşdirməyə) qadirdir. Onların fikrincə, iqtisadiyyatın əsas bazarı pul bazarıdır. Onlar iqtisadi sarsıntıların (kasıblığın) bütün səbəblərini pula olan tələblə təklif arasındakı tarazlığın pozulmasında görürlər. Firidmenin pula olan təklif funksiyası onun pul nəzəriyyəsinin əsas açarıdır: $pY= MV$

Burada p- qiymət səviyyəsi, **Y** - istehsalın həcmi, **M** - pul kütləsi, **V** – pulun dövriyyə sürətidir. Pulun dövriyyə sürəti əsasən sabit kəmiyyət olduğundan, **Y** və **p** parametrlərini təyin edən əsas element kimi **M** pul təklifi çıxış edir. Pula olan təklifin dəyişməsi qiymətlərin artımına gətirə bilər. Dövlət pula olan təklifi artırıb-azaltmaqla tarazlığa nail olar. Pul təklifinə olan nəzarət inflyasiyaya qarşı ən böyük vasitədir. Bu baxımdan monetarizm mək-

təbinin əsas fikirləri belədir.

1. Kreditlərin verilməsi və pul təklifinin məhdudlaşdırılması.

2. Əlavə pul çapını dayandırmaq və onun miqdarını istehsalın həcminə mütənasib şəkildə artırmaq.

3. Sosial proqramları ixtisar etmək. Monitaristlər dövlətin məcmu tələbi tənzimləmək üçün həyata keçirdikləri tədbirləri iqtisadiyyata qeyri-sabitləşdirici təsir göstərən siyasət hesab edirlər.

Ümumidaxili məhsula təsir edən iqtisadi amilin əsas göstəriciləri – ümumi qənaət, daxili və xarici inflyasiya, ümumi yığım, ümumi istehlak xərcləri, ümumi ixrac, ümumi idxal və xalis ixracdır. Bu göstəricilərin ümumdaxili məhsula təsirinin təhlili aşağıdakı kimi, R.F.Kan tərəfindən iqtisadi tədqiqatlarda istifadə olunmuş və onun geniş tədqiqi S.M.Keyns tərəfindən aparılmışdır. Bu tədqiqat daha ətraflı R.Samucison, F.Maklun, C.Robinson, A.Hansen və başqaları tərəfindən inkişaf etdirilmişdir. Bu vuruqların köməyi ilə ümumdaxili məhsulun həcminə təsir edən amillərin quruluşunu (strukturunu) müəyyən etmək mümkündür.

Ümumiyyətlə, qapalı iqtisadiyyatda ümumdaxili məhsulun həcmi ümumi istehlak xərcləri ilə ümumi yığım xərclərinin cəminə bərabərdir. Onda ÜDM = İST + YCG, bu da makroiqtisadi təhlildə YİĞ = İNV, nəticədə ÜDM = İST + İNV qəbul olunur.

Kapital (əsas fondlar) əsas istehsal amillərindən biridir. Kapitalın həcmi ilə məhsul buraxılışı arasında sıx əlaqə vardır. İqtisadi təhlil kapital ehtiyatı ilə məhsul buraxılışı arasında müəyyən optimal qarşılıqlı əlaqənin olmasını əsaslandırır. İnvestisiya da həmin qarşılıqlı əlaqə ilə dəyişdirilir.

İnvestisiya- tələbi iki formada meydana çıxır (2, 234).

1) Köhnəlmiş kapitalı təzələmək üçün (amortizasiya) aşınma məbləğləri. 2) Real kapitalı artırmaq üçün məbləğlər. Ona görə də, kapital qoyuluşu və ya ümumi investisiya amortizasiya ilə rol artma bərabər olub, yeniləşməyə gedən investisiyaya və təmiz investisiya kimi formalaşır. Əgər investisiyanın ümumi həcmi amortizasiyanın həcmindən az olarsa, onda investisiya mənfi olar və ya əksinə. İnvestisiya iqtisadi konyunkturanın dəyişməsinə güclü təsir edir və özünü aktiv formada büruzə verir. Eyni zamanda investisiya həcminin dəyişməsi, hər şeydən əvvəl, konyukturanın artıb-azalmasına səbəb olur. İnvestisiyanın iqtisadi konyuktura təsirinin xüsusiyyəti ondan ibarətdir ki, investisiya zamanı kapitala tələb artır, təklif isə bir qədər gecikmədən sonra artır. Əgər ölkədə əmtəə və xidmətlərə tələb artırsa, onda əlavə tələbi, mövcud istehsal gücündən istifadə edərək istehsalın intensivliyini artırmaqla ödəmək olar. Yox, əgər artan tələb uzun müddətə olarsa, onda sahibkarların marağı istehsal gücünü artırmaqla artan tələbi ödəməklə olar. Bu zaman artan tələbi ödəmək üçün sahibkarlara hansı miqdarda investisiya lazım olduğunu müəyyən etmək üçün artan məhsulun kapital tutumu əmsalını bilmək lazımdır.

A= KAP/AÜDM: burada AKAP əsas fondların artımı, AÜDM isə

ümumi daxili artımdır.

ÜDM artımının əsasını investisiya prosesi (hərəkəti) təşkil edir. ÜDM-nin bir hissəsi cari istehlaka (İST) xərclənir, bir hissəsi isə qənaət (QƏN) olunur. ÜDM = İST + QƏN

Qısamüddətli dövr zamanı qənaətin investisiyaya çevrilməsi üçün qənaət birja və bank sistemindən keçməklə uzun yol (əməliyyat) keçməli olur. Ona görə də, qənaət qısa müddətdə iqtisadi dövriyyədə iştirak etmir. Ancaq istehlak xərcləri qısamüddətli dövrdə ÜDM-nin artımında mühüm əhəmiyyət kəsb edə bilir.

Beləliklə, həmin vəsait əmtəə və xidmətlərin alınmasına xərclənərək satıcıların gəlirlərini artırır, satıcılar da həmin gəlirlərin bir hissəsini xərcləyərək digərlərinin gəlirlərini artırır. Uzunmüddətli dövrdə qənaət fond birjalarından və bank sistemindən keçərək investisiyaya çevrilir. Lakin bu müəyyən gecikmələrlə baş verir. Qənaət və investisiya makroiqtisadi tarazlıq baxımından əlverişli deyil. Çünki bir qayda olaraq investisiyaya tələbat qənaətdən az və ya çox olur. Makroiqtisadi təhlildə qənaətin investisiyaya çevrilməsinin orta müddəti isə üç il qəbul edilir. Məlumdur ki, umumdaxili istehsal xərcləri üsulu, istehlak (İST), investisiya (İNV), dövlət xərcləri (DXR) və xalis ixracın (XİX) xalis ixrac xərcləri cəmi kimi hesablanır. ÜDM = İST + İNV DXR + XİX

Makroiqtisadi təhlil zamanı bəzən ümumdaxili investisiya və xalis kənar investisiya birləşdirilərək məcmu ümumi investisiya adlandırılır. Burada xalis kənar investisiya dedikdə, xalis ixrac başa düşülür. Əgər dövlət xərclərini istehlak və investisiya xərclərinin üzərinə keçirsək, belə bir nəticəyə gələrik: ÜDM=İST + İNB

İnvestisiya, qənaət və yığım arasında sıx əlaqə vardır. İnvestisiyanın mənbəyi qənaətdir. Yığımın mənbəyi isə investisiyadır. Makroiqtisadi tarazlıqda İNV = QƏN, YIĞ = İNV olur.

Fiskal siyasət iqtisadiyyatın sabitləşməsinə, ələlxüsus dövlət bölməsində nizamlayıcı tədbirlərin həyata keçirilməsinə yönəldilən iqtisadi siyasətdir. Ona görə dövlət iqtisadiyyata müdaxilə etməli, inflyasiya və işsizliyin qarşısını alan sabitləşdirici-siyasət həyata keçirməlidir. Məhz belə bir siyasətin nəticəsində cəmiyyət özünün qarşıya qoyduğu məqsədə, istehsalı artırmaq, əhalinin məşğulluğunu daha yaxşı təmin etmək, inflyasiyanı azaltmaq və s.-yə nail olmaqdan ötrü hökumət xərcləri və vergiqoyma məsələlərini dövlətin əli ilə nizamlamalıdır.

Bu siyasətin mahiyyəti dövlətin gəlirləri və xərclərini tənzim etməkdən (buna bəzən antitisklik siyasət də deyirlər) yüksək iqtisadi artımı təmin etməkdən və s.-dən ibarətdir. Fiskal siyasət dövlətin aşağıdakı iqtisadi tənzimləmə vasitələri ilə həyata keçirilir: 1. Büdcə tənzimi. 2. Vergiqoymanın tənzimi. 3. Amortizasiyanın sürətləndirilməsi. Müasir fiskal siyasətdən büdcələrdə tarazlıq olmayanda iqtisadiyyatı sabitləşdirmək məqsədi ilə istifadə olunur. Əgər iqtisadiyyatda ağır vəziyyət olarsa, bu hal dövlət borclarının artmasına,

ikinci mənbə kimi istehsalın tənəzzülünə də səbəb olur. Dövlət fiskal və ya büdcə siyasəti dövlət xərclərinin, vergilərin və eyni zamanda hər birinin artırılıb-azalmasına yönəldilmişdirsə, belə tədbirlər dövlət büdcəsinin dəyişilməsinə gətirib çıxarır. İşsizliklə müşahidə olunan iqtisadi tənəzzülün dövrü məcmu tələbi artırmaq üçün dövlət öz xərclərini azaltmağa və vergiləri azaltmaqla (və ya hər iki əməliyyatı eyni zamanda etməklə) iqtisadiyyatı genişləndirmək siyasətini həyata keçirməlidir [8, 344].

Dövlət xərclərinin artımı və dövlət bölməsinin, yəni yeni ictimai təminatlı sahələrin tikintisi və s. genişlənməsi, ya da əhəmiyyətli əlavələrin, imtiyazların hesabına olmalıdır. Vergilərin azaldılması hesabına ayrı-ayrı şəxs və firmalar daha çox pul əldə edə bilərlər. Bu zaman məcmu xərclər artaraq, nəticədə artıma, yəni iqtisadi yüksəlişə səbəb olacaqdır. İnflyasiya zamanı hökumət öz xərclərini azaltmaqla, yaxud vergiləri qaldırmaqla iqtisadiyyatın sabitləşməsi siyasətini həyata keçirməlidir.

Bu barədə məşhur iqtisadçı D.Qelbreyt demişdir: «Vergi siyasəti» dövlət gəlirlərini artıran adətdən tələbi tənzim edən vasitəyə çevrilməlidir. Digər tərəfdən fiskal siyasətin əsas məqsədi bazarda məcmu tələb və təklifə düşüncəli surətdə təsir göstərmək yolu ilə bazar kortəbiiliyini azaltmaqdır. Hökumət ÜDM-in tarazlıq artımına büdcə xərclərini (dövlət alışlarını) artırmaqla daha tez nail ola bildiyi üçün büdcənin əsas hissəsini vergilər təşkil edir. Məhz ona görə də büdcə kəsiri ÜDM-in tarazlıq səviyyəsinə görə tənzimlənməlidir. Dövlətin iqtisadiyyata təsirini müəyyənləşdirməkdən ötrü vergi tutumunu və büdcə xərclərini dövlətin necə həyata keçirildiyinə, onların özəl sektorun xərclərinə necə təsir etdiyinə diqqət yetirmək lazımdır. Fiskal siyasət dövlət (sektorunun) bölməsinin genişlənməsinə yönəlmişsə, iqtisadi tənəzzülü aradan qaldırmaq üçün dövlət xərcləri artırılır, əgər fiskal siyasət dövlət bölməsinin məhdudlaşdırılmasına istiqamətləndirilmişsə, tənəzzülü aradan qaldırmaq üçün − vergilər, inflyasiya zamanı isə dövlət xərcləri aşağı salınır. İqtisadçılar belə hesab edirlər ki, fiskal siyasətdən düzgün istifadə olunduğu halda o, yaxşı iqtisadi alətə çevrilə bilər.

Ölkənin milli hesablar sistemində ictimai təkrar istehsal prosesinin səmərəli səviyyəsi bir sıra ümumi, makroiqtisadi göstəricilər sistemi ilə xarakterizə edilir. Cəmiyyətin inkişaf səviyyəsini xarakterizə edən göstəricilərdən biri ümummilli məhsul göstəricisidir ki, o da əhəmiyyətinə görə iqtisadiyyatın bütövlükdə fəaliyyətinin nəticəsi kimi özünü əks etdirir. Başqa sözlə desək, müvafiq elmi məxəzlərə əsasən ümummilli məhsul müəyyən bir dövrdə, məsələn bir il ərzində istehsal edilmiş əmtəə və xidmətlərin bazar qiymətləri ilə ifadə olunmuş ümumi məbləğinə deyilir.

Təsərrüfatlarda, şirkət və birliklərdə, dövlət bölməsinə istehsal olunmuş, saxlanılmış əmtəə və xidmətlərin həcminin yekununda ümummilli məhsul bir tərəfdən il ərzində istehsal amillərindən istifadə olunma dərəcəsini, digər tərəfdən isə milli iqtisadiyyatın səmərəliliyinin ümumi səviyyəsini əks etdirir.

İctimai istehsalın hərəkəti və onun nəticəsi olan ÜMM -in haqqında məlumat verərkən iqtisadçılar bir qayda olaraq, onu həm maddi əşya və həm də dəyər, yaxud qiymət ( pul ) cəhətdən fərqləndirirlər.

Bir qayda olaraq, ÜMM-in maddi əşya tərkibi dedikdə, burada istehsal vasitələri və istehlak şeyləri istehsalı başa düşülür.

Buradan belə nəticəyə gəlmək olur ki, ÜMM dedikdə, makroiqtisadi miqyasda xüsusi təsərrüfatlar, şirkət və birliklər, bir sözlə, təsərrüfatın dövlət və qeyri-dövlət bölməsində istehsal olunmuş əmtəə ehtiyatları formasında saxlanılmış, illik məhsulun həcmi və göstərilmiş xidmətlərin dəyər məcmuu başa düşülür.

Milli məhsulun dəyərcə, yaxud qiymətcə tərkibi dedikdə, burada ödəmə fondu, yəni istehsal prosesində istehlak olunmuş əsas və dövriyyə kapitalının həcmi, milli gəlir və ya yeni yaradılmış dəyər kəmiyyətlərinin məcmuu başa düşülür [8, 133].

Qərb iqtisadi ədəbiyyatında ÜMM quruluşu ən əsas dörd elementə bölünür:

**1. İstifadə olunan xərclər.** Bu xərclərə əsas vəsaitlərin dəyəri, onların saxlanması və yaxşılaşdırılması dəyəri daxil edilir. Başqa sözlə, mövcud istehsal prosesində istifadə edilmiş istehsal vasitələrinin dəyəri (xammal, yanacaq, material və onlara texniki xidmət və modernləşən xərclər) daxil edilir.

**2. İstehsal amilləri üzrə xərclər və sifarişlərin idxalından əldə edilən gəlirin bir hissəsi.** Yəni buraya: a) əmək haqqı; b) borc kapitalına görə faiz; c) torpaq rentası; ç) Lizinqlər üzrə ödənişlər və s. daxildir. Bu xərclər bilavasitə tətbiq olunan məsrəflərdir və onların həcminin azaldılması gəlirin kəmiyyətinin çoxalmasına şərait yaradır.

**3. Əlavə xərclər.** Bura ictimai məhsulun dəyər tərkibində avadanlıqların qiymətdən düşməsi və yaxud tətbiq olunan avadanlıqlardan istifadə üçün əlavə xərclərin çəkilməsi daxildir ki, adətən avadanlıqların mənəvi aşınması şəraitində bu növ xərclər məsrəflər tədavülü və gözlənilməz kimi meydana çıxır.

**4. Sahibkarların gəliri.** Burada fəaliyyətdə olan sahibkarların əldə etdiyi mənfəət nəzərdə tutulur.

Ümummilli məhsulun dəyər tərkibinin bu cür təsnifləşdirilməsi bazar sistemli ölkələrin tətbiq etdiyi mühüm üsullardan biridir.

Əlbəttə, istehsal olunan bazartəyinatlı bazar qiymətlərinin reallaşdırılması, məhsulların qablaşdırılması, nəqli və s. işi nə qədər asandırsa, iş günü ərzində istehsal olunan, amma bazar qiyməti almayan, yəni öz iqtisadi təyinatı üzrə istehlaka daxil olmayan əmtəə və xidmətlərin müəyyən edilməsi bir o qədər çətindir.

İş orasındadır ki, əvəzsiz olaraq ictimai xidmətlərin göstərilməsi (dövlətin təhsil, səhiyyə, müdafiə, hüquqi təminatlar və s.) konkret olaraq həmin müddət ərzində onlara çəkilən xərclərin dəyəri ilə qiymətləndirilmir.

Bu dövrdə fərdi sahibkarların çox hissəsi "Ticarət, nəqliyyat vasitələrinin təmiri”, "Nəqliyyat və anbar təsərrüfatı", "Digər sahələrdə xidmətlərin

göstərilməsi" və "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" sahələrində qeydiyyatdan keçmişdir.

Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin 83,5 faizini kişilər, 16,5 faizini isə qadınlar təşkil etmişdir.

2012-ci ilin yanvar-iyun aylarında istehlak mallarının qiymətləri və xidmət tarifləri 2011-ci ilin müvafiq dövrünə nisbətən 2,2 faiz, o cümlədən ərzaq məhsulunun qiymətləri 2,6 faiz, qeyri-ərzaq mallarının qiymətləri 1,3 faiz, pullu xidmətlərin qiymət və tarifləri isə 1,7 faiz bahalaşmışdır. Digər ərzaq məhsullarının qiymətləri 3,2 faiz bahalaşmışdır. Qeyri-ərzaq mallarından "Xalça və digər döşəmə örtükləri" qrupu mallarının qiymətləri 3,0 faiz, "İri alət və avadanlıqlar" qrupu 1,1 faiz, "Minik avtomobilləri 0,3 faiz, "Oyuncaqlar" qrupu 0,1 faiz, "Telefon faksimil cihazları" qrupu mallarının qiymətləri 0,7 faiz ucuzlaşmış, "Parçalar" qrupu mallarının qiymətləri − 1,0 faiz, "Geyim" qrupu − 1,9 faiz, "Ayaqqabı" qrupu − 1,1 faiz, İnşaat materialları − 2,6 faiz, mebel və ev əşyaları − 3,6 faiz, məişət cihazları − 0,5 faiz, şüşə məmulatları və s. 0,7 faiz, dərmanlar 0,5 faiz, minik avtomobilləri üçün ehtiyat hissələri isə 1,3 faiz, qiymətləri qrupu − 3,8 faiz bahalaşmışdır.

Cari ilin yanvar-iyun aylarında əhalinin hər nəfərinə düşən gəlir 2011-ci ilin eyni dövrü ilə müqayisədə 12,7 faiz artaraq 1651,2 manat və ya orta hesabla ayda 275,2 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirin artım sürəti istehlak qiymətlərinin bahalaşmasını 10,5 faiz bəndi üstələmişdir. Bu dövr ərzində ölkə əhalisi tərəfindən əldə edilmiş 15,1 milyard manatlıq gəlirin 63,2 faizi son istehlaka 9,0 faizi vergilərə, sosial sığorta və könüllü üzvlük haqlarının 2,1 faizi kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 25,7 faizi isə yığıma yönəldilmişdir. Əhalinin sərəncamında qalan gəlir 13,7 milyard manat təşkil etmiş və əvvəlki ildəkinə nisbətən 14,5 faiz artmışdır.

2012-ci ilin iyul ayının 1-i vəziyyətinə ölkədə pensiyaçıların sayı 1273,3 nəfər olmuşdur ki, bu da ölkə əhalisinin 13,4 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 150,7 manata çatmış və orta əmək haqqının 39,2 faizini təşkil etmişdir. Cari ilin iyun ayının 1-i vəziyyətinə 313,8 min nəfər sosial müavinət, 63,3 min nəfəri birdəfəlik müavinət, 34,2 min nəfəri Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə təqaüd 142,9 min ailənin 634,5 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır [5, 7-8].

Ölkə iqtisadiyyatının inkişafı ilə yanaşı, əhalinin rifah halının daha da yaxşılaşması, dövlət tərəfindən sosial və iqtisadi öhdəliklərin yerinə yetirilməsi, qeyri-neft sahələrinin ardıcıl inkişafı, infrastrukturun təkmilləşdirilməsi, yeni iş yerlərinin yaradılması sayəsində işsizliyin və yoxsulluğun minimuma endirilməsi və digər amillər onu deməyə əsas verir ki, ölkənin iqtisadi və sosial həyatında son illər müşahidə olunan inkişaf 2012-ci ilin birinci yarısında da davam etmişdir.

## Əsas makroiqtisadi göstəricilər

| | 2012-ci ilin yanvar-iyun ayları faktiki, milyon manat | 2012-ci ilin yanvar-iyun ayları 2011-ci ilin yanvar-iyun aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumdaxili məhsul | 25861,3 | 101,5 |
| o cümlədən qeyri-neft ÜDM-i | 12368,2 | 111,3 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) ümumi həcmi | 17557,4 | 97,0 |
| o cümlədən qeyri-neft sənayesi | 3 131,4 | 108,7 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 5 924.9 | 129.6 |
| o cümlədən qeyri-neft sektoruna | 4 229.4 | 130.2 |
| Kənd meşə və balıqçılıq təsərrüfatının ümumi məhsulu | 1 970,7 | 110,4 |
| Nəqliyyat sektorunda yük daşınması, mln. ton | 103.3 | 103,7 |
| o cümlədən qeyri-neft yüklərinin daşınması | 69.0 | 108.5 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 643.5 | 117.9 |
| Pərakəndə ticarət dövriyyəsi | 8 196,5 | 109,2 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 2 504.9 | 108,0 |
| Xarici ticarət dövriyyəsi, mln. ABŞ dolları ilə (statistika məlumatı) | 22 167.6 | 93.0 |
| o cümlədən:<br>ixracın ümumi həcmi<br>idxalın ümumi həcmi | 17 707,6<br>4 460,0 | <br>91.2<br>100,5 |
| Dövlət büdcəsinin gəlirləri | 8 134.3 | 145.0 |
| Dövlət büdcəsinin xərcləri | 7 109.5 | 145,6 |
| Dövlət budcəsinin profisiti | 1 024.8 | - |
| Əhalinin gəlirləri<br>Hər nəfərə düşən gəlir, manatla<br>Bir işçiyə hesablanmış orta aylıq əmək haqqı, manatla<br>İstehlak qiymətlərinin indeksi | 15099,8<br>1651,2<br>384,5<br>x | 114,2<br>112.7<br>108.3<br>102.2 |

2012-ci ilin birinci yarısında ölkə iqtisadiyyatında 25,9 milyard manatlıq və ya ilin eyni dövrünə nisbətən 1,5 faiz çox ümumdaxili məhsul istehsal olunmuş, ÜDM-nin əhalinin hər nəfərinə düşən həcmi 2828,0 manat (3597,5 ABŞ dolları) təşkil etmişdir [5-14].

ÜDM-in 67,7 faizi iqtisadiyyatın istehsal, 26,3 faizi xidmət sahələrinin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 6,0 faizini təşkil etmişdir.

Sənayedə 14,0 milyard manatlıq, yaxud ümumdaxili məhsulun 54,0 faizi qədər, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 1,2 milyard manatlıq (4,5 faiz), tikintidə 2,4 milyard manatlıq (9,2 faiz), ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 1,8 milyard manatlıq (7,0 faiz), nəqliyyat və anbar təsərrüfatında 1,3 milyard manatlıq (4,9 faiz), turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində 350,0 milyon manatlıq (1,4 faiz), informasiya və rabitə xidmətlərində 431,8 milyon manatlıq (1,7 faiz), sosial və digər xidmətlər sahəsində isə 2,9 milyard manatlıq (11,3 faiz) əlavə

dəyər istehsal edilmişdir.

Bu dövrdə qeyri-neft ÜDM-in əvvəlki ilin eyni dövrü ilə müqayisədə 11,3 faiz artması ilə yanaşı, neft-qaz sektorunda əlavə dəyər istehsalı 6,4 faiz azalmış, neft və qeyri-neft sektorlarının ÜDM-də xüsusi çəkisi müvafiq olaraq 47,8 faiz və 52,2 faiz təşkil etmişdir.

2012-ci ilin birinci yarısında sənayedə fəaliyyət göstərən sahibkarlıq subyekt tərəfindən 17,6 milyard manatlıq məhsul istehsal olunaraq 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,0 faiz azalmışdır. Sənaye məhsulu istehsalı qeyri-neft bölməsində 8,7 faiz artmış, neft sektorunda isə azalma müşahidə olunmuşdur. Sənaye məhsulunun 77,1 faizi mədənçıxarma, 17,6 faizi emal, 4,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal olunmuşdur.

Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 81,9 faizini təşkil etmiş, ümumi istehsalın 92,5 faizi sənaye mallarının (əmtəələrin), 7,5 faizi isə sənaye xarakterli xidmətlərin istehsalı hesabına yaradılmışdır.

2012-ci ilin birinci yarısında 58,2 min, o cümlədən 40,4 min daimi iş yerləri yaradılmışdır ki, bu da işsizlik səviyyəsinin aşağı salınmasına təsir edən əsas amillərindən biridir. Yaradılmış iş yerlərinin 70,1 faizi regionlarda, 87,8 faizi qeyri-dövlət sektorunda açılmışdır.

2012-ci ilin birinci yarısında xarici mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 1308,6 milyon manat təşkil edərək, əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,2 faiz artmış, bu vəsaitin 1217.5 milyon manatı (93,0 faizi) Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Türkiyə, Çexiya Respublikası və Fransa investorlarına məxsus olmuşdur [10, 30].

2009-2013-cu illəri əhatə edən regionların sosial-iqtisadi inkişafının ikinci Dövlət Proqramının icrası ilə əlaqədar 2009-2011 və 2012-ci ilin ilk altı ayı ərzində ölkədə 299,0 min yeni, o cümlədən 219,9 min daimi iş yeri açılmışdır. Təkcə 2012-ci ilin birinci yarısında 58,2 min, o cümlədən 40,4 min daimi iş yerləri yaradılmışdır ki, bu da işsizlik səviyyəsinin aşağı salınmasına təsir edən əsas amillərindən biridir. Yaradılmış iş yerlərinin 70,1 faizi regionlarda, 87,8 faizi qeyri-dövlət sektorunda açılmışdır.

Sahibkarlara göstərilən hərtərəfli dövlət dəstəyinin (güzəştli kreditlərin verilməsi, emal müəssisələri və məhsul saxlama anbarlarının şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatı texnikası ilə təminatın yaxşılaşdırılması, cins mal-qaranın satışı və s.) ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına öz müsbət təsirini göstərmiş və nəticədə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1970,6 milyon manat olmuş, onun sabit qiymətlərlə dəyəri 2011-ci ilin müvafiq dövrünə nisbətən 10,4 faiz, o cümlədən bitkiçilik məhsulları 17,5 faiz, heyvandarlıq məhsulları üzrə isə 5,5 faiz artmışdır.

2012-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi

əvvəlki ilin eyni dövrünün səviyyəsini 9,2 faiz üstələyərək 8196,5 milyon manat olmuşdur. Pərakəndə ticarət şəbəkəsində hər bir ölkə sakininə orta hesabla ayda 149,0 manatlıq və ya 2011-ci ilin eyni dövründəkindən 13,8 manat çox əmtəə realizə edilmişdir.

2012-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkəsində əhaliyə satılmış ərzaq məhsullarının həcmi 0,9 faiz artaraq 4664,4 milyon manata, qeyri-ərzaq mallarının həcmi 23,2 faiz artaraq 3532, l milyon manata bərabər olmuşdur.

Ticarət dövriyyəsinin həcmində ərzaq və qeyri-ərzaq mallarının xüsusi çəkiləri müvafiq olaraq 56,9 faiz və 43,1 faiz təşkil etmişdir [10, 42].

Xarici ticarət dövriyyəsinin 82,1 faizi İtaliya, İsrail, Fransa, İndoneziya, Rusiya Federasiyası, Türkiyə, Amerika Birləşmiş Ştatları, Almaniya, Hindistan, Çin, Bolqarıstan, Böyük Britaniya, Gürcüstan, Yunanıstan, Ukrayna, Tayvan (Çinin əyaləti) və Sinqapur dövlətlərinin hesabına formalaşmışdır.

Ölkəmizə idxal olunmuş malların ümumi həcminin 16,2 faizi Türkiyənin, 14,4 faizi Rusiyanın, 7,7 faizi Almaniyanın, 6,5 faizi Çinin, 6,0 faizi Ukraynanın, 5.8 faizi Böyük Britaniyanın, 5,3 faizi Amerika Birləşmiş Ştatlarının, 3,5 faizi Qazaxıstanın, 2,9 faizi Koreya Respublikasının, 2,6 faizi İtaliyanın, 2,4 faizi Yaponiyanın, 2,0 faizi İran İslam Respublikasının, 1,9 faizi Braziliyanın, 1,7 faizi Fransanın, 1,6 faizi Niderlandın, hər birində 1,5 faiz olmaqla Avstriya və İsveçrənin, 16,5 faizi isə digər ölkələrin payına düşür.

İxrac olunmuş malların 22,7 faizi İtaliyaya, 10,4 faizi İsrailə, 8,9 faizi İndoneziyaya, 8,6 faizi Fransaya, 5,8 faizi Hindistana, 4,9 faizi Amerika Birləşmiş Ştatlarına, 4,1 faizi Almaniyaya, 3,3 faizi Bolqarıstana, 3,1 faizi Rusiya Federasiyasına, 2,5 faizi Yunanıstana, hər birində 2.4 faiz olmaqla Gürcüstan və Türkiyəyə, 2,3 faizi Tayvan (Çinin əyaləti), 2,0 faİzi Sinqapura, 1,9 faizi Tailanda, 1,6 faizi Çexiya Respublikasına, 1,5 faizi İraqa, qalan 11,6 faizi isə digər ölkələrə göndərilmişdir.

Xarici ticarət dövriyyəsinin 90,3 faizi, o cümlədən ixracın 95,8 faizi, idxalın 74,9 faizi, MDB-yə üzv ölkələr istisna olmaqla, digər dövlətlərin payına düşmüşdür. 2011-ci ilin yanvar-iyun ayları ilə müqayisədə bu ölkələrlə ticarət dövriyyəsinin həcmi 0,2 faiz, o cümlədən idxal 6,5 faiz artmış, ixrac olunan malların həcmi isə 1,5 faiz azalmışdır.

2012-ci ilin yanvar-iyun aylarında ölkənin xarici ticarət dövriyyəsi statistik məlumatlara əsasən 22,2 milyard ABŞ dolları təşkil etmiş və onun 79,9 faizi (17,7 milyard dolları) ixracın hesabına formalaşmışdır [10, 30].

Respublikaya idxal olunan malların qiymətləri 2012-ci ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,7 faiz, o cümlədən MDB ölkələrindən idxal olunan mallar 5,2 faiz, digər ölkələrdən idxal olunan mallar isə 1,7 faiz bahalaşmışdır.

Respublikadan ixrac olunan malların qiymət indeksi 2012-ci ilin birinci yarısında əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,5 faiz, o cümlədən MDB

ölkələrinə ixrac olunan mallar üzrə 4,3 faiz, digər ölkələrə ixrac olunan mallar üzrə isə 8,7 faiz bahalaşmışdır.

2012-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 45,0 faiz artaraq 8134,3 milyon manata çatmış, xərcləri isə 7109,5 milyon manat təşkil edərək 45,6 faiz artmışdır. Büdcənin profisiti 1024,8 milyon manat və ya ümumi daxili məhsulun 4,0 faizi səviyyəsində olmuşdur.

Büdcə gəlirlərinin 13,7 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisindən, 13,2 faizi əlavə dəyər vergisindən, 4,6 faizi fiziki şəxslərin gəlir vergisindən, 3,2 faizi aksiz vergisindən, 4,1 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən, 2,7 faizi digər vergilərdən daxil olmuş, 58,5 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir [3, 3].

Özəl bölmənin inkişafının sürətləndirilməsi bu sahəyə maliyyə dəstəyinin daha da gücləndirilməsi məqsədilə dövlət vəsaitləri hesabına sahibkarların investisiya layihələrinin güzəştli qaydada kreditləşdirilməsinin daha da səmərəli qanuni tənzimləmişdir. Kiçik və iri sahibkarlara dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin ildən-ilə artması iş adamlarının fəaliyyətinə süni müdaxilələrin aradan qaldırılması, antiinhisar və korrupsiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi iş adamları tərəfindən razılıqla qarşılansa da, lakin göstərilən hallar hələ də aradan qaldırılmamışdır. Hətta dövlət qulluğunda olan şəxslərin maneçilikləri və qeyri-şəxslərin sahibkarlara vurduqları ziyanların aradan qaldırılmasına dövlət orqanları laqeyd yanaşaraq onların hüquqlarını açıqdan-açığa pozub səthi yanaşırlar. Hazırda özəl bölmənin ümumi daxili məhsuldakı payı 82 faiz təşkil edir. Odur ki, dövlət qulluğunda olan məmurlar bilməlidirlər ki, sahibkarların büdcəyə verdikləri mənfəətdən maliyyələşirlər və buna görə də sahibkarların hüquqlarının qorunması və onların dəstəklənməsi hər bir vətəndaşın borcudur. Necə ki, inkişaf etmiş ölkələrdən ABŞ-da, Almaniyada, Fransada, Böyük Britaniya və digər dövlətlərdə olduğu kimi bu sahə mikroiqtisadiyyatın əsasını təşkil edir. Beləliklə, demokratikləşmə prosesinə keçid mərhələsində sahibkarlığın və xüsusi mülkiyyətçiliyin əhəmiyyətinə verilən böyük qiymət iqtisadi cəhətdən inkişaf etmiş bir çox dövlətlərin uğurlu təcrübəsinə əsaslanır ki, bunu ölkə iqtisadiyyatına qoyulan 16 milyard dollar sərmayədən aydın görmək mümkündür. Sərmayələrin əsas hissəsi daxili sərmayələrdir, yəni 70 faizə qədəri. Qalan hissəsi isə xarici sərmayələrin vəsaitidir ki, bu da dövlət siyasətinin uğurlu nəticəsidir. Dövlət tənzimlənməsində daxili sərmayələrin əsas hissəsi dövlət xətti ilə qoyulan vəsaitdir. Eyni zamanda özəl bölmədə də bu sərmayədən daha əlverişli şəkildə istifadə edilir [6, 2-3].

İnsan amilini əsas tutan sosial yönümlü iqtisadi siyasət nəticəsində son illər Azərbaycan dövlətində işsizliyin səviyyəsində azalma olmuşdur. Belə ki, qeyri-neft bölməsinin və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər əmək qabiliyyətli əhalinin iqtisadi fəaliyyətinin yüksəldilməsi, eyni zamanda ölkənin məşğulluq inkişafı-

nın səmərəliliyinə təsir göstərir və qeyri-neft bölməsinin davamlı və dinamik inkişafı ölkədə işsizlik məsələlərinin həllinə təkan vermişdir. Ölkədə məşğulluq səviyyəsi 95 faiz təşkil etmişdir. 2012-ci ilin doqquz ayında 94 min yeni iş yeri açılmışdır.

## ƏDƏBİYYAT


1. Meybullayev M.X. Makroiqtisadiyyat. Dərslik, Bakı: İqtisad Universiteti, 2011, 450 s.
2. Rəhimov A.M. Azərbaycan elmi-tədqiqat kənd təsərrüfatının iqtisadiyyatı və təşkili institutu. Elmi əsərləri. Bakı, 2007. s. 234.
3. "Azərbaycan" qəzeti. 2012-ci il, 16 oktyabr, s. 3.
4. Ş.V.Salahov. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, 2004, 214 s.
5. İqtisadiyyat və həyat jurnalı. 7-8. 2012. səh. 12-14.
6. "Respublika" qəzeti. s. 2-3. 2012
7. İqtisadi nəzəriyyə, T.Vəliyev. Bakı: Çaşıoğlu, 1999, 353 s.
8. İqtisadi nəzəriyyə. Makroiqtisadiyyat, metaiqtisadiyyat, transformasiya iqtisadiyyatı. Moskva: Müəlliflər birliyi, 2008,700 s.
9. İqtisadi nəzəriyyə. Oqtay Əfəndiyev, Bakı: Elmlər Akademiyası, 2008, 486 s.
10. Statistika Komitəsinin 2011-2012-ci ilin 9 ayının sosial-iqitsadi göstəriciləri bülleteni. s.30-42.


## ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ И ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ МАКРОЭКОНОМИЧЕСКОГО УРАВНОВЕШЕНИЯ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ


**Г.Х.БЕХБУДЗАДЕ**


### РЕЗЮМЕ


В статье приведен сравнительный анализ макроэкономических социально-экономических показателей Азербайджана за последние годы. Выявлена роль государственной экономической политики в достижении прогрессивных тенденций в росте ХВП, обеспечении сбалансированной денежной системы.



**Ключевые слова:** макроэкономика, государственная политика денежной системы, социально-экономические показатели


## STATE REGULATION AND THEORETICAL BASIS OF MACROECONOMIC BALANCE OF SOCIAL-ECONOMIC DEVELOPMENT IN THE REPUBLIC OF AZERBAIJAN


**H.Kh.BEHBUDZADE**


### SUMMARY


The article studies the social-economic and macroeconomic indicators of Azerbaijan, investigates the theoretical problems of national economy, and analyzes the role of state in the provision of balanced monetary system.



**Key words:** social-economic, macroeconomic, balance, investigate